Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Rus poeziyasının sevilən xanımı – Anna Axmatova

**Anna Axmatovanın 130 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Rus poeziyasının sevilən xanımı – Anna Axmatova:** Anna Axmatovanın 130 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. - 20 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

Böyük əsərlər ən dərin iztirabdan, sürəkli əzab və hədsiz məhəbbətin nakam sonluğundan doğulur. Böyük rus tənqidçisi N.Q.Çernevski yazırdı: "Sənət əsəri, doğrudan da o zaman gözəl ola bilər ki, sənətkar öz əsərində bütün vermək istədiklərini vermiş olsun".

Rus mədəniyyətinin zəngin, sürəkli inkişaf mərhələsi, heç şübhəsiz ki, XIX əsr hesab olunur. Həmin əsrin mütərəqqi ənənələrinə və klassik dünya ədəbiyyatının humanist təcrübəsinə istinad edərək yüksələn XX əsr rus ədəbiyyatı da məhz özünün şeir-sənət korifeyləri ilə möhtəşəmdir. Poetik yaradıcılıqları ilə təkcə rus rejimində deyil, həm də dünya poeziyasında müstəsna yer tutan A.Blok, V.Bryusov, K.Valmont, N.Qumilyov, V.Mayakovski, S.Yesenin, B.Pasternak kimi ədəbi şəxsiyyətləri xatırlatmaq kifayətdir. Bunlarla bir vaxtda poeziya səltənətinin ən uca taxt-tacda əyləşən və əbədi şöhrət qazanan şairə qadınları da yazıb-yaratmışlar – Anna Axmatova, Marina Svetayeva kimi! Dünya poeziyası antik dövrdə gözəl Şapfonu necə tanıyırsa, XX əsrdə bu iki xanım o cür tanınır. Rus ədəbiyyatının heç bir mərhələsində bu səviyyədə şairə qadın yetişməmişdir. Azərbaycanda da vaxtilə çox az öyrənilən, tədqiq olunan Anna Axmatova son zamanlarda bizim şair və tədqiqatçılarımızın, alimlərimizin diqqətini cəlb etməkdədir. Ç.Əlioğlunun, Vaqif Cəbrayılzadənin, Mahir Qarayevin, A.Əmrahoğlunun, T.Hacıyevin tərcümə və tənqidçilik fəaliyyətində bunu aydın görürük və onların qədirşünaslığını xüsusi ehtiramla qeyd edirik.

Bu sahədə yeni təşəbbüs göstərən filologiya elmləri namizədi, dosent Turə Yusifovanın "Anna Axmatovanın həyat və yaradıcılığı" çox səciyyəvi və aktualdır. Rus ədəbiyyatı fənni üzrə çoxdan ixtisaslaşan Turə xanımın belə bir kitab yazması

həyati və mənəvi zəruriyyətdən yaranmışdır. Kitab təkcə ali məktəb tələbələri üçün deyil, geniş oxucu kütləsi üçün də çox faydalıdır. Bunu eyni zamanda tədqiqatçı-müəllimin gələcək elmi axtarışlarının uğurlu başlanğıcı kimi də qiymətləndirmək olar. Anna Axmatovanın poeziyasında daha çox qəm, kədər motivləri , “dünyəvi iztirab” üstünlük təşkil edir. “Ruhun, qəlb aləminin dialektikası” onun şeirlərində incə lirizmlə ifadə olunmuşdur. Həyat normalarına, ictimai kanonlar çərçivəsinə sığmayan Anna Axmatova sakit, yumşaq, üsyankarlıq, etiraz və ittihamlarla öz ideya-fikir qənaətlərini cəsarətlə deməkdən çəkinmirdi. Zəmanəyə, cəmiyyətə söyləmək istədiklərini o, birbaşa deyil, özünəməxsus simvolik obrazlarla deməyi bacarırdı. Şairin əsərlərlərində bəşəri ideyalar, əzəli və əbədi mövzular, məhəbbət, gözəllik, xəyanət, qısqanclıq kimi hisslər, fəlsəfi mühakimələr, müdrik deyim tərzi başlıca yer tutur. Ayrı-ayrı şahanə misralara, beytlərə nəzər salmaq olar:

Təkcə qəm-kədərdir əbədi, heyhat,
Bir də hər səslənən şahanə kəlmə...
Öz doğma balanın boğazından kəs,
Bir tikə çörək ver o yad yetimə...
Günahı nə qədər olsa da ayır,
Sənə zülm edəni özünə dost bil.
Kaş ki, qucağımda sənin uşağın
Dilənib beş şahı pul qazanaydım...

C.Əlioğlunun tərcüməsində verdiyimiz bu misralarda “Dirilməkdən, ölməkdən, yaşamaqdan yorulan” şair insanlığı ədalətə, insaf və humanizmə səsləyir. Sözdə “Şahanə kəlməyə” yüksək qiymət verir, həqiqi söz sənətinin əbədiliyinə inanır.

Böyük sənət həmkarı Marina Svetayeva, əbəs deyil ki, onu “ilahələr gözəli”, “ağı ilahəsi”, “bəyaz gecələrin şıltaq, dəcəl övladı” adlandırırdı. Onun Anna Axmatovaya həsr etdiyi gözəl, yığcam şeirinə nəzər salmaq yerinə düşər:

Mən dustağam, sən gözətçi,
Elə birdi qədərimiz,
Bu boşluğun bomboz içi
Bir ömürlük kədərimiz.
Nə üzümdə kin var daha,
Nə gözümdə bir umacaq,
Gözətçi, gəl burax məni,
Burax gedim o şamacan... *(Tərcümə Mahir Quliyevindir)*

Anna Axmatova bir mübariz şair olmaqla yanaşı, könülləri riqqətə gətirən lirik şeirlərin də müəllifidir. Onun poeziyası mübarizlik ruhunda şeirləri qədər əsrarəngiz lirikası ilə də oxucunu valeh edir. Bu bir həqiqətdir ki, şairə Axmatovanın sənəti mövzu məhdudluğu tanımadığı kimi, onun üçün səpki və janr məhdudiyyəti də olmamışdır. Şair qələminin qidalandığı insan aləmi və onun taleyi zəngin bir xəzinədir. Orada sevgiyə, sədaqətə, əhdə, vəfaya, övlad məhəbbətinə, vətənə, sülh və əmin-amanlığa, arzulara, təbiətə, gözəlliyə, məftunluğa, azadlığa, ədalətə kifayət qədər yer verilmişdir. Şairin lirik əsərləri ilə yaxından tanış olduqca, onlarla səmimi ünsiyyət tapdıqca, bir həqiqət daha inandırıcı şəkildə üzə çıxır. Anna Axmatovanın yaradıcılığının araşdırılması bir daha sübut edir ki, ilk yaradıcılıq dövrü və gənclik çağları mübarizələrdə keçən şairə, poeziyamızda ayrılıq, vətən həsrəti, gözəlliyin tərənnümü, azadlıq, məhəbbət mövzusuna ardıcıl müraciət edənlərdən biridir.

Ziyalı qələm sahibi Anna Axmatovanın 130 illik yubileyi münasibətilə yazılmış bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə ***"Novator şairə-Anna Axmatova"*** adlanır və şairin nakam həyatından bəhs edir. II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## *Həyat və fəaliyyəti*

Anna Axmatova 1889-cu ilin 23 iyununda Odessada, zadəgan ailəsində dünyaya göz açıb. Atası mühəndis-mexanik olub. Anna özünü ana tərəfdən Qızıl Orda xanı Əhməd xanın nəslindən hesab edirdi və məhz buna görə sonradan Axmatova təxəllüsünü götürmüşdü. Amma bunun əfsanə olduğu deyilir.

Anna Axmatova 1900-1905-ci illərdə Sarskoye Selo Marinski Gimnaziyasında təhsil alıb. 1906-1907-ci illərdə Kiyev Fundukleyevski Gimnaziyasında təhsilini davam etdirib. Müəllimləri arasında gələcəkdə tanınmış filosof olacaq Qustav Şpet də vardı. 1907-ci ildə N.Qumilyov redaktor olduğu "Sirius" jurnalında Axmatovanın "Əllərində onun parlaq üzüklər..." (Na ruke eqo mnoqo blestyaşih kolets...) adlı şerini Anna Q. imzası ilə ilk dəfə olaraq çap edib. 1908-1910-cu illərdə ali təhsilini Kiyev Universitetində, sonradan N.P.Rayevin Sankt-Peterburqda təsis etdiyi Qızlar üçün Ali Tarix-Ədəbiyyat Universitetində davam etdirib. 1910-cu ildə Nikolay Stepanoviç Qumilyov ilə ailə qurub. 1910-1912-ci illərdə N. Qumilyov ilə Paris və İtaliyaya səyahət edib, Amedeo Modilyani ilə tanış olub. 1911-ci ildə "Anna Axmatova" təxəllüsü ilə əsərlərini ilk dəfə çap etməyə başlayıb. 1912-ci ilin oktyabr ayında oğlu Lev Nikolayeviç Qumilyov dünyaya gəlib. Həmin ilin mart ayında "Axşam" (Veçer) adlı ilk şeirlər kitabı 300 nüsxə ilə çap olunub. 1914-cü ildə "Təsbeh" (Çetki) adlı kitab 1000 nüsxə, 1917-ci ildə üçüncü "Ağ qanadlı qatar" (Belaya staya) kitabı 2000 nüsxə ilə işıq üzü görüb. Nikolayeviç Qumilyovla olan evlilikdə xoşbəxt olmamışdır, 1918-ci ilin avqust ayında N. Qumilyovdan boşanıb və alim-assiroloq, şair Vladimir Şileyko ilə ailə qurub. 1921-ci ilin aprel ayında "Petropolis" nəşriyyatında "Bağayarpağı" ("Podorojnik") şeirlər məcmuəsi 1000 nüsxə ilə çap olunub. Həmin il V.K.Şileykodan ayrılıb. Bu nikah

pozulduqdan sonra ilk dəfə rəsmi olaraq Axmatova soyadını götürüb. Oktyabr ayında “Petropolis” nəşriyyatında Axmatovanın “Anno Domini MCMXXI” adlı kitabı nəşr olunub. 1922-ci ildə sənətşünaş Nikolay Puninlə nigah bağlayıb. 22 oktyabr 1935-ci ildə N.N. Punin və Lev Qumilyov həbs olunublar və bir həftədən sonra buraxılıblar. 1938-ci ildə oğlu Lev Qumilyov beş il müddətinə azadlıqdan məhrum edilib.

1923-1934-cü illərdə Anna Axmatovanın şeirləri çap olunmayıb. Lidiya Çukovskayanın “Anna Axmatova haqqında qeydlər” (Zapiski ob Anne Axmatovoy) kitabında yazdıqlarına görə, bu müddət ərzində yazılmış şeirlərin çoxu daimi köçmələr zamanı yollarda itirilib. Bu barədə Axmatova özü 1965-ci ildə işıq üzü görən “Qısaca özüm haqqında” kitabında yazır: “20-ci illərin ortalarından mənim yeni şeirlərim çap olunmurdu, köhnələri isə təkrarən çap edirdilər”.

Şairə 1935-1940-cı illərdə o illərin repressiyalarını və özünün ağır həyatını əks etdirən məşhur “Rekviyem” əsərini yazır. “Rekviyem” adlı avtobioqrafik poeması 1930-cu illər repressiyalarına həsr olunmuş ilk bədii əsərlərdən hesab olunur. 1938-ci ildə N.N. Punindən ayrılır. 1940-cı ildə “Altı kitabdan” (İz shesti kniq) adlı altıncı şeirlər toplusu işıq üzü görür. 1941-ci ildə Sankt-Peterburqa, sonralar isə həkimlərin tövsiyəsi ilə Moskvaya, Çistopola, oradan Kazan şəhərinə və nəhayət, Daşkəndə evakuasiya olunur. Daşkənddə onun yeni şeirlər kitabı işıq üzü görür. 1943-cü ildə Lev Qumilyovun Norilsklagerdə həbs müddəti sona yetir və onu Zapolaryeya sürgün edirlər. 1944-cu ilin sonunda o, İkinci dünya müharibəsinə gedir, Berlinə kimi döyüşlərdə iştirak edir. Müharibə bitdikdə Leninqrada dönür və elmi dissertasiyasını müdafiə edir. 1945-ci il 15 mayda Axmatova evakuasiyadan Moskvaya dönür. 1946-cı ildə SSRİ KP MK-nin TB “Ulduz” (Zvezda) və “Leninqrad” jurnalları haqqında 14 avqust 1946-cı il tarixli

qərarına əsasən, Anna Axmatova və Mixail Zoşenkonun yaradıcı fəaliyyətləri kəskin tənqidə məruz qalır. Hər ikisi SSRİ Yazıçılar İttifaqından kənarlaşdırılır. 1949-cu il 26 avqustda N.N. Punin həbs edilir. 6 noyabr tarixində isə Lev Qumilyov yenidən həbs olunaraq 10 il müddətinə düşərgələrdə cəzaçəkməyə məhkum olunur. Oğlunun cəza çəkdiyi müddətdə Axmatova onu azadlığa buraxdırmaq səylərini durmadan davam etdirir. 1951-ci il 19 yanvar tarixində Aleksandr Fadeyevin təklifi ilə Axmatova SSRİ Yazıçılar İttifaqına yenidən qəbul edilir. 1956-cı ildə Lev Qumilyov həbsdən reabilitasiya olunur. 1958-ci ildə şairənin "Şeirlər" (Stixotvoreniya) adlı kitabı çap olunur. 1965-ci ildə o, Oksford Universitetinın Fəxri doktor diplomuna layiq görülür. Həmin il "Zamanın uçuşu" (Beq vremeni) adlı kitabı nəşr edilir.

Anna Axmatova 1966-cı il 5 martda Domodedovo şəhərində vəfat etmişdir. 7 mart saat təxminən 22:00-da Ümumittifaq radiosu onun vəfatını elan etmişdir.

Anna Axmatova Sankt-Peterburq şəhərinin yaxınlığında Komarovo qəsəbə qəbiristanlığında dəfn edilmişdir. Axmatovanın məzarı üzərində barelyef olan daş divar oğlu Lev Qumilyov tərəfindən tikilmişdir. Bu divar Anna Axmatovanın "Kresti" istintaq təcridxanası qarşısında günlərlə oğlu üçün yemək çatdırmaq niyyəti ilə dayandığı divarın simvoludur.

## Yubiley tədbirlərinin keçirilməsi

Rus ədəbiyyatının klassiki hesab olunan rus şairəsi, yazıçısı, ədəbiyyatşünası, tərcüməçisi Anna Axmatova (Qorenko) anadan olmasının 130 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, dəyirmi masa, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq

məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Toxtayıb kiridi könlümün qəmi, əlim də allahın ətəyindədi", "Olsun ki, gələcək geçikmiş bir çağ", "Anna Axmatova – 130", "Rus ədəbiyyatının klassiki", "Rus poeziyasının xanımı", "Böyük sənət adamı – Anna Axmatova", "İlahələr gözəli", "Ağı ilahəsi – Anna Axmatova", "Bəyaz gecələrin şıltaq, dəcəl övladı", "Evsiz-eşiksiz kraliça" və s.

Anna Axmatovanın 130 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri *"Toxtayıb kiridi könlümün qəmi, əlim də allahın ətəyindədi"* adlı **şeir müsabiqəsi** ola bilər. Kitabxanaçı öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə başlayır. Şairin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından qısa məlumat verir. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır.

*Birinci iştirakçı "Məktub" adlı şeirini intonasiya ilə deyir.*

Mənim məktubumu gülüm, əzmədən,
Oxu, axıracan heç tələsmədən.
Yad olub özgələşdim sənin yolunda
İndi yorulmuşam, yaman bezmişəm.

Mənim məktubumu, əzizim, əzmə,
Ağlama yalançı vədinə görə.
Daha lazım deyil, sən onu, gəzmə,
Qoy kasıb çantanın dərin yerinə...

*İkinci iştirakçı "Qonaq" adlı şeirini demək üçün səhnəyə yaxınlaşır.*

Bu gün şair qonağıyam,
Günorta. Bazar.
Geniş otaq sakitlikdir,
Çöldə boran, qar.

Bəyaz günəş tüstü kimi
Şəfəqlərini yayır.
Qaradinməz sahib də ki,
Mənə hey baxır.

Neva çayı sahilində,
Hündür boz evdə.
Adi söhbət tarix oldu
Bugünkü gündə!..

*Üçüncü iştirakçı şeirini intonasiya ilə deyir.*

Çuqundan məhəccərim,
Şaim iynəsi yorğanım.
Artıq mən qısqanmıram,
Şükür, daha yorğunam.

Bu yatağı bir sabah,
Ağı deyib aşdılar.
Sənsə azadsan daha
Allah sənə olsun yar.

Daha dəng olmaz başın,
Sonsuz giley-güzardan.
Sənə şam yandıranı
Tapacaqsan de hardan?

*Beləcə, təxminən 10-12 iştirakçı növbə ilə əzbərlədikləri şeirləri söyləyirlər. Münsiflər heyəti şeir müsabiqəsi qaliblərini müəyyən edir, onlara diplom təqdim edirlər. Həmçinin qaliblərə hədiyyə və şairin müxtəlif adda şeir kitabları verilir.*

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi kitab müzakirəsi də keçirilə bilər. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə Anna Axmatovanın kitabları əsasında *"Rus ədəbiyyatının klassiki"* adlı **konfrans** keçirə bilər. Kitabxanaçı əvvəlcə adı çəkilən bu kitab haqqında məlumat verir:

*Kitabxanaçı:* Şöhrəti bu gün də azalmayan, hələ sağlığında rus ədəbiyyatının klassiki hesab olunan rus şairəsi, yazıçısı, ədəbiyyatşünası, tərcüməçisi Anna Axmatova yaradıcılığı ilə yanaşı öz faciəvi taleyi ilə məşhurdur.

Doğrudur, Anna Axmatova şəxsən həbs edilməyib, sürgün olunmayıb. Amma sovet rejimi onun doğmaları olan iki nəfəri-birinci əri Nikolay Qumilyov və oğlu Lev Qumilyova qarşı amansız davranıb.

1910-1018-ci illərdəki həyat yoldaşı Nikolay Qumilyov 1921-ci ildə güllələnib, oğlu Lev Qumilyov isə ömrünün 10 ilini barmaqlıqlar arxasında keçirib. Özünün isə yaradıcılığı nəzarət, daimi qadağa altında olub. Hətta ölümündən bir neçə onillik keçəndən sonra belə Anna Axmatovanın əsərlərinə qadağa mövcud olub. "Vətən xaini" nin anası və "vətən xaini" nin arvadı Anna Axmatovanın "təcrübəsi" öz əksini "Rekviem" poemasında tapıb.

Əsərlərinə qoyulan qadağalara, Kommunist Partiyasının ona qarşı "personal" nifrətinə baxmayaraq, Anna Axmatova sağlığında rus ədəbi mühitini daima öz ətrafına yığa bilib, dövrünün ən istedadlı gəncləri ilə əhatə olunub.

*I iştirakçı:* Anna Andreyevna Axmatova (Qorenko) 1889-cu ilin iyun ayının 11-də Odessada, Böyük Fontanda, təqaüddə olan

gəmi mühəndisinin ailəsində doğulub. 1980-ci ildə onun ailəsi Tsarskoe Seloya köçüb. 1900-1905-ci illərdə Tsarskoselskoe Gimnaziyasında təhsil alıb. 1906-1907-ci illərdə Kiyevdəki Funduklevo gimnaziyasında oxuyub. 1908-1910-cu ildə Kiyevdəki ali qadın kurslarına və Peterburqdakı ali ədəbi-tarixi kurslara gedib.

Anna ilk şeirini 11 yaşında yazıb. Atası ona şeirlərini Qorenko familiyası ilə nəşr etdirməyi qadağan etdiyindən, Anna ulu ana nənəsi Praskofya Fedoseyevna Axmatovanın qızlıq familiyası ilə çap etdirib. Qeyd edək ki, ulu nənəsi Praskofya Axmatovanın ana tərəfi qədim tatar knyazları Çaqadayevlərin və məşhur dvoryan nəsli axmatovların nəslindən idi.

*II iştirakçı:* 1923-cü ildən 1934-cü ilə qədər Anna Axmatova demək olar ki, çap olunmayıb. Daima ora-bura köçən şairə yazdığı şeirlərin çoxunu yollarda itirib. Anna Axmatova o vaxtlar "Özüm haqda bir-iki kəlmə" başlıqlı qeydlərində yazırdı: "Mənim köhnə şeirlərimi yada salan, təzələrini isə çap edən yoxdur". Cüzi sayda işıq üzü görən şeirlər isə ciddi senzuraya məruz qalırdı.

"Qəhrəmansız poema" əsərində isə Axmatova Rusiya ədəbiyyatının "Gümüş dövrü" nün epoxasını yaratmağa çalışıb. Anna Axmatovanın şeirləri dünyanın bir çox dillərinə tərcümə olunub.

*III iştirakçı:* Oğlu həbsdə olan müddətdə Anna Axmatova onu qurtarmağa cəhd edir. 1935-ci ildən sonra o hakimiyyət barədə bəyanatlarında çox diqqətli olmağa çalışır və hətta 1950-ci ildə yazdığı "Sülhə eşq olsun!" şeirlər silsiləsində rejimə qarşı loyallıq nümayiş etdirməyə çalışır. Sonradan Axmatova bu silsiləni öz toplularına daxil etmirdi.

1951-ci ilin yanvarında A.A.Fadeyevin təşəbbüsü ilə Anna Axmatova Sovet Yazıçıları Birliyinə bərpa olunur. İki il sonra N.Punin cəza çəkdiyi düşərgədə dünyasını dəyişir. 1956-cı ildə

XX Qurultaydan sonra Lev Qumilyov bəraət alır və düşərgədən qayıdır.

Lev Qumilyov elə bilirdi ki, anası onun azadlığa çıxması üçün heç nə eləməyib. Amma Axmatovanın müraciətlərindən xəbər tutduqdan sonra ana ilə oğulun arasında münasibətlər gərginləşdi. 1962-ci ildə Anna Axmatova Ədəbiyyat üzrə Nobel mükafatına təqdim olundu. Elə həmin il də İtaliyada "Etna-Taormina" ödülünə layiq görüldü. 1965-ci ildə Oksford Universitetinin fəxri doktoru diplomunu alır. Elə həmin il də "Vaxt Tanrısı" adlı şeirlər toplusu işıq üzü görür.

1966-cı ilin mart ayının 7-də İttifaq radiosu dahi şairə Anna Axmatovanın ölüm xəbərini yaydı. O, iki gün əvvəl, Moskva yaxınlığında, Domodedovodakı sanatoriyada, ürəyinin kardioqrammını çıxarmaq üçün başına toplaşan həkimlərin və tibb bacılarının əhatəsində dünyasını dəyişmişdi. Rus poeziyasının "Gümüş dövrü" nün ən parlaq, ən istedadlı adlarından biri olan Anna Axmatovanı Sankt Peterburq yaxınlığındakı Komorovo adlanan yerdə dəfn etdilər.

Kitabxanada mövzu ilə bağlı müxtəlif tədbirlər keçirilməsi məqsədəuyğundur. Oxucuları maarifləndirmək adına kitabxanaçı kitabxanalarla birgə məktəblərdə də mütəmadi tədbirlər keçirir. Belə tədbirlərdən biri də *"Təkcə qəm-kədərdir ədəbi, heyhat"* adlı **oxucularla söhbət** adlanır. Kitabxanaçı məktəbin oxu zalına toplaşan oxuculara vətənpərvər şairə Anna Axmatova haqqında məlumata keçid alır.

*Kitabxanaçı:* Şair İ.Brodskinin dəqiq ifadəsinə görə, Axmatova ömrünün son illərini "ölkənin köhnə və yeni paytaxtları arasında gedib-gələn, evsiz-eşiksiz kraliça kimi keçirmişdir".

Xarici dilləri asan öyrənirdi, fransız dilini uşaqlıqda bacısına keçilən dərslərdə mənimsəmişdi. Ailə həyatı qurduqdan sonra Parisdə olarkən fransız dilini mükəmməlləşdirdi və bu dili bütün həyatı boyu unutmadı. Ata tərəfdən əcdadlarının birinin yunan

olduğunu və “burbon sümüyü” adlanan əyri burnunun ondan miras qaldığını söyləməyi də unutmurdu.

Anna Andreyevnanın sözlərinə görə ana babası Erazm İvanoviç Stoqov “jandarm-polkovniki” olmuşdu, amma Axmatova üçün bundan daha önəmlisi onun Uralda hərbi xidmət keçdiyi zaman Puşkini canlı olaraq görməsi idi.

Axmatovanın bütün hallarda müxtəlif xalqlar, müxtəlif şəhərlərlə əlaqəsi vardı. Uşaqlıqda dəfələrlə yaşayış yerini dəyişməli olmuşdu. Qara dənizdə mühəndis-dənizçi olan atası Baltikaya xidmətə göndərilmişdi, valideynlərinin boşanmasında sonra isə evlər dəyişildi.

Elə bu səbəbdən də Anna Axmatovanın sağlığında işıq üzü görən, onun ədəbi fəaliyyətinin başlandığı şəhərdə nəşr edilən ilk kitabının ön sözünün müəllifi Boris Filippov iddia edir: “Anna Axmatovada (o həm də Qorenkodur) həm tatar, həm də yunan əcdadlarının qanı dolaşır, Novorossiyadan birbaşa Tsarskoe seloya təkcə şair kimi deyil, həm də puşkinşünas kimi gəlmişdi… Amma poetik ifadəsində cənub havası deyil, ən qeyri-adi, təkrarolounmaz sadə Axmatova gözəlliyi ilə bərabər, daha çox şimal ab-havası duyulur…”

Axmatovanın yolu hərbi vəziyyətdə olan Moskvadan əvvəlcə Çistopola, oradan isə uzaq Daşkəndə uzanmışdı. Bir dəfə ora Leninqradın rəhbəri-şairin taleyi ilə maraqlanan A.A.Jdanov zəng edərək soruşur:

− Bizim Axmatova necədir?

Anna Andreyevnanın həyatında daha bir şəfəq parladı. Oğlu həbs müddətini başa çatdıraraq cəbhəyə könüllü döyüşçü qismində getməyə nail oldu. Uğurla döyüşdü, ordu ilə bərabər Berlinə qədər getdi.

Qələbədən sonra Moskvada böyük həcmli şeir kitablarının nəşrləri hazırlanırdı. Müəllif siqnal nüsxəni əlinə almağa müvəffəq oldu, hətta məşhur poeziya kolleksiyaçısı, möhtəşəm

arxivi V.İ.Lenin adına kitabxanaya bağışlanan Anatoli Tarasenkova da hədiyyə etdi. Və siqnal sayı arxayın yerdə saxlandı, belə ki, bununla 10 min sayda tirajı məhv edilmiş əzabkeş kitabın bir nüsxəsi qoruna bildi.

Qara qoyun kimi girib yuxuna-
Zərif, arıq ayaqlarla.
Yaxınlaşıb deyəcəyəm:
Padşah, naharın necəydi?

Muncuq kimi əlindəki kainatı
Allahın rəhməti ilə qoruyuruq biz...
Bəs oğlumun dadını necə
Sən də, uşaqların da bəyəndinizmi?"

Anna Axmatovanın 130 illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də ədəbi-bədii gecədir. *"Susmayan haqq şairəsi"* adlı **ədəbi-bədii gecədə** Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, alimlər, maarifçilər, jurnalistlər, sənət-söz adamları, oxucular, məktəblilər iştirak edir. Qonaqlar ədibin şəkilləri, müxtəlif adda əsər başlıqları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin aparıcıları səhnəyə yaxınlaşır.

*I aparıcı:* Salam, dəyərli qonaqlar, bu il böyük yazıçı, rus ədəbiyyatının bənzərsiz siması Anna Axmatovanın anadan olmasının 130 ili tamam olur. Sizləri bu mənalı və gözəl tədbirdə xoş gördük. Rus ədəbiyyatı qarşısında böyük xidmətlər göstərən Anna Axmatova öz sahəsində durmadan işləyib, rus ədəbiyyatına səmərəli töhfələr verərək böyük təsir göstərib.

*II aparıcı:* XX yüzilliyin əvvəllərində Anna Axmatovanın ədəbiyyata "rahat və asan" gəlişi o zaman rus şeirinin misralarında təzə-təzə yaranmağa başlayan zəif titrəyişləri qısa bir zamanda təlatümə çevrilir. Ədəbiyyata yeni ruh, yeni baxış və yeni istiqamət gəlir. Anna Qorenkonun bu uğurlu gəlişindən

sonra təzə əsr özünün gələcək yeni ədəbiyyatını çaxnaşma ilə qarşılamağa məcbur olur. Poeziyaya sel kimi gələn qadın axını həmin illərdə yazıb-yaradan kişi şairləri belə üstələyir. Bəlkə elə buna görə də təəssübkeşliklə yazan Axmatova o dövr üçün məqbul sayılan "qadın başlanğıcı" nı qəbul etmək istəmir, hər şeydə; hisslərin çılğınlığında, mənanın dərinliyində, fikrin emosiyanallığında bərabərliyə üstünlük verirdi. Xarakterində cəmləşən və yaradıcılığında özünü göstərən bu məziyyətlərə görə də ona heç kəs şair demir. Anna Axmatova əsl şair idi. O zaman ulu nənəsinin şərəfinə tatar ismini özünə təxəllüs seçəndə qayğısız Anyanın ağlına gəlməzdi ki, sonralar Axmatova yanğısıyla belə yazacaq:

*I aparıcı:* Qədim türk, tatar ismi,
Taleyimə yapışıb.
Fəlakətdir siqləti
Hər dərd ilə tapışır.

Əlbəttə, "silqətində fəlakət daşıyan türk ismi" Axmatovanı novator şair kimi qəbul etmək istəməyənlərin əlində bir bəhanə idi. Çünki o ədəbiyyata yeni və diktə olunmamış şair kimi daxil oldu. A. Tarkovskinin təbirincə desək, "şöhrət öz qapılarını onun üzünə çox ani, bir gündə açdı... "Lakin o şöhrətdən asılı deyildi.

Rusların "qluxie qodı" adlandırdıqları illərdə də Anna yazırdı. Özü də ruhdan düşmədən! Əzab çəkdiyi üçün yazırdı!

Qır-qızıl paslanar, çürüyər polad,
Mərmər də məhkumdur, axır ölümə.
Təkcə qəm-kədərdir əbədi heyhat
Bir də hər səslənən şahanə kəlmə!

*II aparıcı:* On bir yaşından bədii yaradıcılığa başlayan Annanın ilk şeiri 1911-ci ildə "Appolon" jurnalında çap olunur. 1912-ci ildə "Axşam" adlı ilk şeirlər toplusu işıq üzü görür.Tənqidçilər tərəfindən mehribanlıqla qarşılanan Axmatova tez bir zamanda

böyük rus şairləri cərgəsinə qoşulur. Bir qədər keçdikdən sonra onun adı artıq Aleksandr Blokla yanaşı çəkilirdi. Hətta Blok vəfat etdikdən sonra, tənqidçilərdən biri yazırdı: "...rus şairləri arasındakı birinci yer mübahisəsiz Axmatovanındır".

*I aparıcı:* O gün Komarovoda- Anna Axmatovanın məzarı önündə ziyarətə gəlmiş əli gül-çiçəkli insanlar onu son mənzilinə yola salmağa gəlmişdi. İndi şairənin Anna Axmatovanın vəfatından çox uzun zaman keçib. Buna baxmayaraq, o, gözəl şairə kimi oxucuların qəlbində elə yüksək zirvəni fəth edib ki, bu gün də sevilə-sevilə oxunur. Bu gün onun adını iftixarla çəkir, onun şəxsiyyət və yaradıcılığına ehtiramla yanaşırıq. 80-ci illərin sonlarında Rusiyada Anna Axmatovanın əsərlərinin kütləvi çapı geniş vüsət aldı. Bu illərdə şairin toplularını həm Moskva, həm də Leninqrad nəşriyyatları bir-birinin ardınca yüksək tirajla nəşr edirlər. Bundan sonra Anna Axmatovanın şeirləri bir çox dünya xalqlarının dilində də yayılmağa başlayır.

*II aparıcı:* Bu gün Azərbaycanda Anna Axmatovanın həyat və yaradıcılığını araşdırmaq, tətbiq etmək, onun şeirlərini dilimizə çevirmək dövrün və zamanın zərurətindən daha çox, müasir oxucunun tələbi və ehtiyacını ödəmək baxımından vacibdir. Gəlin, birlikdə Anna Axmatova şeirlərinin işığına toplaşaq, "axmatovacasına sevgi" nin ləzzətini paylaşaq.

## Ədəbiyyat siyahısı


***Əsərləri***

***Dövri mətbuatda***

Anna Axmatovanın Nikolay Qumilyova məktubları // Ədəbiyyat qəzeti. - 2017. - 12 avqust. - № 29. - S. 15.

Amadeo Modilyani : [Yəhudi kökənli İtalyan heykəltəraş və rəssamı Amadeo Modilyani haqqında] // Ədəbiyyat qəzeti. - 2016. - 28 may. - № 20. - S. 24-25.

Artıq heç gülümsəmirəm : şeir // Kaspi. - 2016. - 30 iyul. - № 130. - S. 19.

Hər şey onun itaəti altında idi : Mixail Lermontov haqqında // Ədəbiyyat qəzeti. - 2016. - 21 may. - № 19. - S. 19.

İki şeir ; Son görüş nəğməsi ; Oh. o gün dünyanın sərin dəmiydi və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 2017. - 22 iyul. - № 26. - S. 4-5.

Puşkin haqqında bir neçə söz // Ədəbiyyat qəzeti. - 2016. - 21 may. - № 19. - S. 19.

Sizə az qala Prometeydən oğurladığım qədimi alovu yollayıram // Ədəbiyyat qəzeti. - 2016. - 19 noyabr. - № 43. - S. 8.

***Haqqında***

***Kitab***

İsrafilova A. Anna Axmatova. - Bakı : Elnur-P, 2005. - 68 s.

***Dövri mətbuatda***

**Aydın X.** Anna Axmatovanın ürəyini çürüdən senzura // Kaspi. - 2016. - 17 sentyabr. - № 146. - S. 14.

**Kolodnı L.** Şair və kitab - Anna Axmatova // Kaspi. - 2018. - 23 iyun. - № 110. - S. 18-19. ; 30 iyun. - № 114. - S.14-15.

**Svetayeva M.** Kədərdən doğulan ilham pərisi ; Başım qollarımın arasında ; Daha bir böyük uçuş və şeirlər : Anna Axmatovaya yazılan şeirlər silsiləsi // Ədəbiyyat qəzeti. - 2017. - 20 may. - № 18. - S. 30.

**Turan A.** Çarmıxa çəkilmiş Ruhun Məryəm Anası : "Modernizm dalğası" silsiləsindən // Ədəbiyyat qəzeti. - 2017. - 13 may. - № 17. - S. 9.

**Rus poeziyasının sevilən xanımı – Anna Axmatova**

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 27
Çapa imzalanmışdır: 03.05.2019
Tirajı:100
Pulsuz